# Arzusu dünya şöhrətli rəssam olmaqdır

## 12 yaşlı Nəzrinin uğur hekayəsi



**Anadangəlmə sağlamlıq imkanı məhdud olan 12 yaşlı Nəzrin Əliyeva Bakı Musiqi Akademiyasının tərkibində İncəsənət Gimnaziyasının 6-cı sinfində təhsil alır. Lap kiçik yaşlarından şəkil çəkməyə olan hədsiz marağı onu gimnaziyaya yönəldib. Ötən illər ərzində rəssamlığa meyli o qədər artıb ki, artıq öz gələcək taleyini məhz bu sənətə bağlayacağına qərar verib.**

Çünki o, həyatın məna və məzmununu yalnız al-əlvan rənglərin ahəngində, fırçanın hökmü ilə yaradacağı möcüzələrdə, həmin rənglərin dili ilə təsvir edəcəyi xoşbəxtlik modellərində tapacağına əmindir.

Hələ kiçik yaşlarından şəkil çəkmək məqsədilə korladığı ağ kağızların sayı-hesabı olmayıb, ancaq bu, valideynləri narahat etməyib, əksinə sevindiriblər. Balaca qızcığazda olan bu həvəsi hiss etdiklərinə görə ana və ata bir-birinin bəhsinə onun üçün çoxlu ağ kağız alırlarmış. Və nəhayət, günlərin bir günü qərara gəliblər ki, artıq istedada işıq yandırmağın zamanı yetişib. Nəzrinin əlindən tutub gətiriblər adıçəkilən bu gimnaziyaya. Anası Kəmalə Əliyevanın söylədiyinə görə, yolboyu xoş xatirələr bir an belə onu rahat buraxmayıb, - bilmək olmaz, bəlkə elə balamız gələcəkdə ən tanınmış bir rəssam olacaq, düşünürmüş. Bəli, beləcə ailədə yekdil qərar qəbul olunub və Nəzrin hazırda təhsil aldığı İncəsənət Gimnaziyasının nümunəvi şagirdinə çevrilib. Təhsil ocağında onları ilk qarşılayan rəsm müəllimi Əminə Dadaşova Nəzrinin fərqli bir uşaq olduğunu, rəsmə böyük maraq göstərdiyini dərhal duyub və onu öz qrupuna üzv edib.

### İlk uğuru sonrakı qələbələrə stimul olub

2017-ci ilin noyabrında Nəzrin Dövlət Bayrağı Günü münasibətilə keçirilən "Bayraqları bayraq yapan üstündəki qandır!" adlı müsabiqədə iştirakına görə fəxri fərmanla və müxtəlif hədiyyələrlə təltif olunub. Həmin ilin dekabrında isə növbəti yarışmaya qatılıb və müsabiqəyə təqdim etdiyi yaradıcılıq nümunələri ilə fərqlənib. Belə ki, o, Təhsil Nazirliyi və Fövqəladə Hallar Nazirliyi tərəfindən keçirilən "Fövqəladə hallar uşaqların gözü ilə" VII Respublika Uşaq Yaradıcılıq müsabiqəsində rəsm nominasiyası üzrə birincilik qazanıb. 2018-ci il 9 noyabr tarixində Dövlət Bayrağı Günü münasibətilə keçirilən "Üç rəngli bayrağınla məsud yaşa!" adlı rəsm müsabiqəsində həvəskar rəssam II yerə layiq görülərək diplomla, sertifikatla təltif olunub.

### Onun zəngin fantaziyası

20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunan və Bakı şəhər orta ümumtəhsil müəssisələrinin şagirdləri arasında "20 Yanvar faciəsi xalqımızın qəhrəmanlıq salnaməsidir" mövzusunda keçirilən rəsm müsabiqəsində Nəzrinin fantaziyası, igidlərimizin qəhrəmanlıq salnaməsinə özünün yeni rəng və ahəng qatması, onları əsil cəngavərlər kimi təsvir etməsi münsiflərin diqqətindən yayınmayıb və o, II yerə layiq görülüb. Sevindirici haldır ki, 2018-ci ildə tərtib olunan Azərbaycan XXI əsr istedadlar kitabında Nəzrin Əliyeva barədə də geniş məlumat yer alır.

N.Əliyeva 2019-cu il "Uşaq hüquqları - bərabər" mövzusunda keçirilən tədbirdə fəal iştirakına görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diplom və hədiyyələrə layiq görülüb. Yeri gəlmişkən, müxtəlif markalı maşınların kolleksiyasını həvəslə toplayan Nəzrin 2019-cu ilin yanvarında 13-cü "Toyota - arzularımın maşını" rəsm müsabiqəsində "Yaradıcılıq axtarışına görə" sertifikatla mükafatlandırılıb.

### "Nə yaxşı ki, mən varam"

2019-cu ilin 1 iyun tarixi də Nəzrin üçün yaddaqalan olub. Belə ki, o, Uşaqların Müdafiəsi Gününə həsr olunmuş "Nə yaxşı ki, mən varam" mövzusunda Respublika rəsm müsabiqəsində onlayn səsvermə nəticələrinə əsasən qalib olub və KamART İncəsənət Qalereyası tərəfindən II yerə layiq görülərək diploma, hədiyyələrlə mükafatlandırılıb. Bütün bu nailiyyətlərə görə Nəzrin valideynlərinə və sevimli müəlliminə özünü borclu sayır.

### Qələbə bizimdir

Vətən müharibəsi ərəfəsində keçirilən rəsm müsabiqəsində Nəzrinin 2 rəsmi ayrı-ayrı nominasiyalar üzrə I yerə layiq görülüb. Belə ki, çəkdiyi qız və başındakı araxçından uzanan bayraq şəkli onu birincilik zirvəsinə ucaldıb. Həmin rəsmə "Qarabağa gedən yol" adını verib. 2-ci rəsmdə isə əlini açıb dua edən oğlanı, Şuşaya gedən yolu və düşmənlərin məğlubiyyətini təsvir edib. Bu rəsm isə "Qələbə bizimdir" adlanıb. Çox çəkmədi ki, Nəzrinin arzuları reallaşdı və Müzəffər Ordumuzun şücaəti sayəsində qələbə bizim oldu, Qarabağ işğaldan azad olundu.

Nizami ili də Nəzrin üçün düşərli olub. Onun Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinə verdiyi illüstrasiya 1 nömrəli Uşaq-Gənclər Mərkəzi tərəfindən bəyənilərək sertifikatla mükafatlandırılıb. Daha sonra 2021-ci ilin martında "Nizami Gəncəvi əsərləri təsviri sənətdə" adlanan onlayn Respublika baxış müsabiqəsində iştirak edərək 1-ci yerə layiq görülüb və diploma təltif olunub. Nəzrin görkəmli fırça ustası, Xalq rəssamı mərhum Tahir Salahov yaradıcılığının vurğunudur. Onun yaratdığı rəsmlər Nəzrinin ruhunu çox oxşayır, mənəvi aləmini zənginləşdirir. Buna görə də arzusu gələcəkdə Tahir Salahov kimi dünyaşöhrətli rəssam olmaqdır.

Pandemiya dövründə də Nəzrin yaradıcılıq fəaliyyətinə bir gün belə fasilə verməyib. Müəllimi Əminə Dadaşova öz yetirməsinin çalışqanlığından çox razıdır, birmənalı olaraq onun gələcəyinə ümidlə baxır. Əmindir ki, onun həssas qəlbli, dərin fəlsəfi düşüncəli Nəzrin Əliyevanın üzərindəki əməyi hədər getməyəcək və o, gələcəkdə korifey sənətkar zirvəsinə, Tahir Salahov pilləsinə əzmkarlığı sayəsində ucalacaq.

**Sifai SƏFƏROVA**